

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 188 (21.089)**

***2 oktyabr 2014-cü il, cümə axşamı***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də İSESCO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul edib.

Görüşdə Azərbaycan ilə İSESCO arasında uzun illər davam edən səmərəli əməkdaşlığın uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu, əlaqələrimizin bundan sonra daha da inkişaf etdiriləcəyinə əminlik bildirildi. Söhbət zamanı Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətindən danışıldı, xalqlararası əlaqələrin və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi baxımından forumun önəmi vurğulandı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də BMT-nin İnkişaf Proqramının (UNDP) rəhbəri xanım Helen Elizabet Klarkın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də İtaliyanın keçmiş Baş naziri, Tədqiqat və Qanunvericilik Agentliyinin baş katibi Enriko Lettanı qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Estoniyanın keçmiş Prezidenti Arnold Rüüteli qəbul edib.



## B.M.İsmayılovun Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəxtiyar Məmməd oğlu İsmayılov Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 oktyabr 2014-cü il*

## B.M.İsmayılovun Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəxtiyar Məmməd oğlu İsmayılov Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 oktyabr 2014-cü il*

## Məhdud fiziki imkanlılar üçün Distant Tədris Mərkəzi istifadəyə verilmişdir





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası istiqamətində ardıcıl tədbirlər görülür. Sərəncama uyğun olaraq, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılmışdır.

Oktyabrın 1-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə gəlmiş, Distant Tədris Mərkəzinin fəaliyyəti ilə tanış olmuşdur.



Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov məlumat vermişdir ki, binada mərkəzi server və çevirici avadanlıqlar quraşdırılmış, tədris sinfinə intellektual-elektron lövhə, kompüter, smart kamera, monitor və digər texniki avadanlıqlar qoyulmuşdur. Hazırda muxtar respublika üzrə 18 sağlamlıq imkanı məhdud uşaq distant təhsilə cəlb edilmişdir. Bu uşaqların yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və vebkameralar quraşdırılmışdır. Mərkəzdə çalışan 4 müəllimə, eləcə də uşaqların valideynlərinə sistemdən istifadə qaydalarının öyrədilməsi məqsədilə kurs keçilmişdir. Distant Tədris Mərkəzinə eyni vaxtda 50 istifadəçinin qoşulması mümkündür. Gələcəkdə serverin tutumunun 200 istifadəçiyədək artırılması nəzərdə tutulmuşdur ki, bu da daha çox şagirdin videobağlantı vasitəsilə məsafədən tədris prosesinə qoşulmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri distant tədris sistemini işə salmış, dərs prosesini izləmişdir.

Bildirilmişdir ki, distant tədris sistemi müxtəlif məsafələrdə olan təhsil müəssisələri arasında informasiya mübadiləsinin operativ və səmərəli təşkilinə imkan verir. Mərkəzdə müəllim və şagirdlər arasında interaktiv əlaqə təşkil olunmuşdur. Şagirdlər videobağlantı vasitəsilə keçilən dərsləri dinləmək və müəllimlərlə birbaşa əlaqə saxlamaq imkanına malikdirlər. Hazırda burada şagirdlərə ibtidai siniflərin proqramında nəzərdə tutulan fənlər tədris olunur. Tədris sinfindəki interaktiv lövhə elektron dərsliklərdən və digər multimedia tədris avadanlıqlarından istifadəyə imkan verəcəkdir. Bu da şagirdlərin daha çox biliklərə yiyələnməsi və dünyagörüşlərinin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Həmçinin qeyd olunmuşdur ki, son illər muxtar respublikada məhdud fiziki imkanlı uşaqların ümumtəhsil məktəblərinə cəlbi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Artıq muxtar respublikanın ümumtəhsil məktəblərində 701 məhdud fiziki imkanlı uşaq təhsil alır ki, onların da 64-ü birinci sinif şagirdidir.

Şahbuz rayonunun Ağbulaq kənd sakini, valideyn Səlim Cəmşidli videobağlantı vasitəsilə yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, məhdud fiziki imkanlıların təhsilə cəlbi istiqamətində görülən işləri ölkəmizdə, eləcə də muxtar respublikamızda insan amilinə verilən qiymətin

*Ardı 2-ci səhifədə*

daha bir ifadəsi kimi dəyərləndirmişdir.

Müəllimlərlə söhbət zamanı Ali Məclisin Sədri demişdir ki, sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasının gücləndirilməsi və onların cəmiyyətə inteqrasiyasında distant təhsilin mühüm rolu olacaqdır. Yaradılan şərait uşaqların yaxşı təhsil almasına imkan verəcəkdir. Ona görə də müəllimlər uşaqların təhsilinə diqqətlə yanaşmalı, tədris proqramlarının həcmi artırılmalı, valideynlərlə mütəmadi əlaqə saxlanılmalıdır.

Sonra Ali Məclisin Sədri Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin fəaliyyəti ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, mərkəzdə kompüter, operator və müəllimlər otaqları, audiostudiya, defektoloji bölmə və kitabxana vardır. Otaqlarda quraşdırılan müasir tədris avadanlıqları sağlamlıq imkanları məhdud uşaqların təhsil almasına, onların kompüter və digər elektron resurslardan istifadə bacarıqlarının artırılmasına şərait yaradır. Mərkəzin audio və elektron kitabxanasında 439 audio və 518 elektron kitab mövcuddur. Həmçinin burada "Brayl" əlifbası ilə çap olunmuş dərslik, ədəbiyyat və jurnallar da vardır. Bu günə qədər audio kitabxanada muxtar respublika üzrə 482 görmə qabiliyyəti məhdud şəxs qeydiyyatdan keçmişdir.

Ali Məclisin Sədri mərkəzin audio və elektron kitabxanasının yeni ədəbiyyatlarla zənginləşdirilməsi, muxtar respublikada distant təhsilə keçid istiqamətində həyata keçirilən tədbirlərin və bu sahədə yeni texnologiyaların tətbiqinin bundan sonra da davam etdirilməsi, eləcə də müvafiq pedaqoji kadr hazırlığının təmin olunması barədə aid qurumlara tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Payızın ilk günündə yaşanan sevinc

## *Görsən, tanımazsan indi Qahabı*

***Daha bir yayı arxada qoyaraq qızılı payızın ilk günlərini yaşayırıq. Havalar soyumaqda, təbiət yaşıl donunu dəyişməkdədir. Belə günlərin birində yolumuz Babək rayonunun Qahab kəndinədir. Yol kənarlarındakı əkin sahələrində çalışan torpaq mülkiyyətçiləri yetişdirdikləri məhsulları havalar tamamilə soyumamış yığıb-yığışdırmaqla məşğuldurlar. Düşünürəm ki, kənd adamlarının əkin sahələrində belə canfəşanlıqla çalışmaları əbəs deyil. Onlar istəyirlər ki, məhsul tədarükünü tezliklə başa çatdırsınlar.***

***Yol boyu bir-birini müasirliyə qovuşmuş kəndlər əvəz edir. Gördüyümüz mənzərələr insan qəlbində xoş duyğular yaradır. Bu gün muxtar diyarımızın hansı guşəsinə üz tutsaq, belə təəssüratları yaşaya, sevinc hissləri keçirə bilərik. Ona görə ki, ötən dövr ərzində bu yaşayış məntəqələrində həyata keçirilən quruculuq işləri, yaşıllaşdırma tədbirləri insanların yaşam tərzini kökündən dəyişib, evlərə firavanlıq gətirib. Qahab da belə kəndlərimizdən biridir.***

### *El ağsaqqalı ilə başlanan söhbətlər*

Uzaqdan diqqəti yeni tikililər çəkir. Kəndə müasir qəsəbə görkəmi verən həmin obyektlər muxtar respublikada bərqərar olmuş sabitliyin, nəticə etibarilə, inkişaf və tərəqqinin göstəricisi kimi dəyərləndirilə bilər. Bunun belə olduğunu bir qədər sonra görüşüb söhbət edəcəyimiz kənd sakinləri də təsdiqləyəcəklər.

Budur, kənd yolunun sağında böyük bir ərazidə inşa olunmuş məktəb binası, kənd mərkəzi, həkim ambulatoriyası, kənd yolunun sonunda xidmət mərkəzi.

Kənd mərkəzinin qarşısında qələbəlikdir. Salamlaşırıq, kənd sakinlərini yeni sosial obyektlərin istifadəyə verilməsi münasibətilə təbrik edirik, onların payız qayğıları ilə maraqlanırıq. Özü demişkən, hava almağa çıxan 84 yaşlı el ağsaqqalı Qəzənfər Zamanov dillənir:

– Muxtar respublika rəhbərinə minnətdarıq. Qahab heç vaxt görə bilmədiyi günlərinə qovuşub. Gündəlik xırda-para qayğılarımıza qalanda isə, nə deyim? İlin payız fəsli kənd adamları üçün daha çox qayğılarla dolu olan bir dövrdür. Erkən yazdan əkin sahələrinə çıxan, məhsul bolluğu yaradan insanlar payızda çəkdikləri zəhmətin bəhrəsini toplamaqla, qarşıdan gələn qışa hazırlıqla məşğul olurlar. Son illər muxtar respublikamızda payız fəsli üçün daha çox xarakterik olan bir ənənə formalaşmaqdadır. Bu, kompleks quruculuq tədbirləri çərçivəsində inşası başa çatdırılmış obyektlərin açılış mərasimləridir.

El ağsaqqalının söhbətinə onunla birlikdə kəndi gəzməyə çıxan təqaüdçü Elxan Fərzəliyev qoşulur:

– Qahabda bir neçə gün əvvəl gördüyünüz bu binaların açılışı oldu. Onu da deyim ki, neçə illər qabaq kəndimizdə bir neçə quruculuq tədbiri həyata keçirilib. Qahabı Naxışnərgiz kəndindən ayıran Qahab çayı üzərində tikilmiş körpü yenidən qurulub. İki artezian quyusu vurulub, 148 şagird yerlik əsas məktəb binası tikilib. İki Qarabağ əlili üçün yeni evlər inşa olunub. Əlillərə minik avtomobilləri verilib.

Sahibkar Əziz Mirzəyev söhbətə qoşulur:

– Qahaba göstərilən qayğını müxtəlif sahələrdə görmək olar. Elə götürək sahibkarlığı. Kənddə 4 çörək, 1 bərk pendir istehsalı sahəsi fəaliyyət göstərir. Mən özüm heyvandarlıqla məşğul oluram. Bunun üçün müxtəlif dövlət yardımlarından yararlanıram. Yaxşı da qazanıram. Kənddə bu sahəyə maraq



ildən-ilə artır.

El ağsaqqalı Qəzənfər Zamanov yenidən söhbətə müdaxilə edir:

– Bu gün sevincimin həddi-hüdudu yoxdur. Yaşımın bu vaxtında Qahabın belə çağlarını görmək mənə də qismət oldu. Elə bil ki, cavanlaşmışam. Bugünkü cavanlara isə sözüm odur ki, tikilənləri qorusunlar. Bu həcmdə quruculuq işi asan başa gəlməyib.

### *Yeni kənd mərkəzində*

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə əvəzi Mirzəmməd Qasımlı ilə müasir iş şəraiti yaradılmış kənd mərkəzinə daxil oluruq. Deyir ki, 3429 nəfər sakini, 843 təsərrüfatı olan Qahab Babək rayonunun böyük yaşayış məntəqələrindən biridir. Bu il kənddə kompleks quruculuq tədbirləri həyata keçirilib. Quruculuq tədbirlərindən biri Yarımca-Qahab-Nəcəfəlidizə-Naxışnərgiz avtomobil yolunun yenidən qurulmasıdır. Mirzəmməd Qasımlı bildirdi ki, kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, arxiv, mədəniyyət evi üçün otaqların və 83 yerlik iclas zalının ixtiyarımıza verilməsi bu təşkilatlarda çalışanların məsuliyyətini daha da artırıb. Mərkəzdə rabitə evi yaradılıb, 512 nömrəlik yeni ATS quraşdırılıb. Burada 385-i Qahab və 70-i Naxışnərgiz kəndlərində olmaqla, 455 abonentə xidmət göstərilir. Rabitə evində gündəlik mətbuatın, eləcə də danışıq və internet kartlarının satışı təşkil olunub.

Onunla mərkəzdəki otaqları gəzirik. Mədəniyyət evinin müdiri Səfəralı Nəsirovla həmsöhbət oluruq. Bildirir ki, 40 ilə yaxındır, mədəniyyət sahəsində çalışır. Belə şəraiti ilk dəfədir görür. Buna görə də kəndin mədəniyyət işçiləri adından minnətdarlığını bildirir. Vurğulayır ki, yaradılan şərait qahablılara nümunəvi mədəni xidmət göstərməyə imkan verdiyindən bu imkanlardan səmərəli istifadə etməyə çalışacaqlar.

### *Müasir səhiyyə ocağı*

Kənd mərkəzinin yaxınlığında həkim ambulatoriyası qahablıların istifadəsinə verilib. İki mərtəbədən ibarət olan bu səhiyyə müəssisəsində 8 tibb işçisi əhalinin sağlamlığının qayğısına qalır. Ambulatoriyada stomatoloji kabinə, peyvənd, mama, baş həkim, tibb bacısı, manipulyasiya otaqları, aptek və doğuş zalı vardır. Səhiyyə müəssisəsi müasir tibbi avadanlıqlar, lazımi dərman vasitələri ilə təmin edilib.

Bütün bunlardan razılıqla danışan səhiyyə ocağının baş həkimi Fazilə Abbasovanın onlara yaradılan şəraitdən məmnun qaldığını hiss etmək çətin deyildi. Deyir ki, sakinlər arasında səhiyyə maarifi işi aparılması diqqət mərkəzində saxlanılır, yaşlı insanlara, körpələrə evlərində tibbi xidmət göstərilir. Burada müayinəyə gələn Məlahət Paşayeva bir qahablı kimi yaşadığı kənddə yaradılanların onu da ürəkdən sevindirdiyini dilə gətirdi. Məlahət Paşayeva və ambulatoriyanın baş həkimi kənd adamları və səhiyyə işçiləri adından dövlətimizə minnətdarlıqlarını bildirdilər.

### *Təhsildə qazanılan uğurlar artacaq*

Qahab kəndində təhsilin inkişafına ciddi diqqət yetirilməsinin nəticəsidir ki, yaşayış məntəqəsinin təhsil ocağını bitirən Nadir Əliyev, Gülü Əsgərova, Nəbi Əsgərov müxtəlif elm sahələri üzrə elmlər və fəlsəfə doktorlarıdır. Onlar haqqında kənd məktəbinin yeni binasında ürəkdolusu söhbət etdilər. Məktəbin direktoru Müzəffər Zamanov bildirdi ki, bir neçə gün əvvəl qapılarını müəllim və şagirdlərin üzünə açan yeni məktəb binası belə alimlərin sayının çoxalmasına imkan verəcək, daha böyük uğurlar qazanılmasını təmin edəcək.

Məlumat üçün bildirək ki, torpaqlarımız uğrunda şəhidlik zirvəsinə yüksəlmiş 4 qahablı orta təhsillərini bu məktəbdə alıb. Məktəb onlardan birinin, şəhid Babək Əliyevin adını daşıyır. Hazırda məktəbdə 380 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 48 müəllim məşğul olur. Ötən dərs ilində məktəbin 16 məzunu ali məktəb tələbəsi adına layiq görülüb. Bir nəfər texnikuma qəbul olunub.

612 şagird yerlik yeni məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Məktəbdə 34 sinif otağı, fizika və kimya laboratoriyaları, hərbi kabinə, 3 kompüter otağı, 4 elektron lövhəli sinif, 2 müəllimlər otağı, kitabxana, bufet, idman zalı vardır. Pulsuz dərsliklərlə təminatla yanaşı, zəngin fonda malik kitabxanaların istifadəyə verilməsi də şagirdlərin dünyagörüşünün formalaşmasına xidmət edir. Məktəbin 14 min 314 kitab fonduna malik yeni kitabxanası bədii ədəbiyyat və dərsliklərlə zənginləşdirilib. Kitabxanada kompüter dəstinin quraşdırılması və internetə qoşulması isə internetdən səmərəli istifadə etməklə elektron nəşrlərin əldə olunmasına imkan verib. Kompüter otaqlarındakı 57 kompüter dəstinin hər biri internetə qoşulub. Lazımi cihaz və avadanlıqlarla təchiz olunan fizika, kimya və biologiya laboratoriyaları biliklərin təcrübi yolla möhkəmləndirilməsinə şərait yaradıb. Məktəbdə həmçinin şahmat sinfi istifadəyə verilib.

Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi üçün hərbi kabinədə bütün imkanlar var. Burada sıra, atəş, mühəndis və tibb hazırlıqlarını əks etdirən stendlər və digər əyani vasitələr qoyulub. Məktəbin pedaqoji kollektivi yeni dərs ilinin ilk günlərindən təhsil ocağında işin səmərəli qurulmasına çalışır, dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər vətəndaşlar yetişdirmək üçün müasir təlim üsullarına üstünlük verir, məktəbdənkənar və sinifdənxaric məşğələlərin səmərəli təşkilinə çalışır. Məktəbdə tərtib olunmuş iş və tədbirlər planlarında müxtəlif tarixi və əlamətdar günlər, bayramlar münasibətilə tədbirlərin keçirilməsi nəzərdə tutulub.

* * *

Yolumuzu yeni xidmət mərkəzindən salırıq. Əsasən yerli istehsal məhsullarının satışının təşkil edildiyi mərkəzdə bərbərxana, qadın gözəllik salonu, dərzi, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Kənd məktəbinin müəllimi Hüseyn Əliyev deyir ki, indiyədək Qahabda 1 xidmət mərkəzi fəaliyyət göstərirdi. Kənd böyük olduğu üçün həmin ticarət obyekti qahablıların gündəlik tələbatını ödəyə bilmirdi. Bu da bir sıra narazılıqlara səbəb olurdu. Artıq bu çətinliyimiz də aradan qalxdı.

*Qahabdan ayrılarkən son illər muxtar respublikada şəhər və kənd arasında olan fərqlərin aradan qaldırılması istiqamətində görülən işləri göz önünə gətirdim. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Qahab Kənd Mərkəzinin açılışında bununla bağlı dediyi sözləri xatırladım:* ***"Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması aparılan abadlıq-quruculuq işlərindən, yaradılan müasir infrastrukturdan asılıdır. Belə ki, kəndlərin tamamilə qazlaşdırılması, elektrik enerjisinin fasiləsiz verilməsi, internetdən istifadə, televiziya yayımlarının həyata keçirilməsi insanların rahat yaşayışına və əhalinin daha sıx məskunlaşmasına səbəb olur. Bu gün Qahab kəndində yaradılan şərait də əhalinin problemlərinin vaxtlı-vaxtında həll olunmasına, onların öz təsərrüfatları ilə rahat məşğul olmalarına imkan verəcəkdir... Bu gün istifadəyə verilən yeni məktəb binası kənddə uşaqların yaxşı təhsil almasına, kənd mərkəzi dövlət qurumlarının fəaliyyətinin səmərəli təşkilinə, həkim ambulatoriyası insanların sağlamlığının qorunmasına, yol isə onların rahatlığının təmin olunmasına xidmət edəcəkdir. Ümumilikdə isə bütün bunlar kəndin inkişafına hesablanmış tədbirlərdir".***

**Muxtar MƏMMƏDOV**

# Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə layiqli töhfə

*Məlumdur ki, 2014-cü ildə yaradılması ümummilli lider Heydər Əliyev tərəfindən "tarixi nailiyyət" kimi dəyərləndirilən Naxçıvan Muxtar Respublikasının 90 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 14 yanvar 2014-cü ildə "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 17 yanvar 2014-cü ildə imzaladığı Sərəncamla "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nı təsdiq etmişdir. Tədbirlər planında yubiley ili olan 2014-cü ildə – Ali Məclisin Sədri tərəfindən elan edilən "Muxtariyyət ili"ndə muxtar respublikanın yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə konkret vəzifələr müəyyən edilmişdir. Muxtar respublikanın elm və yaradıcılıq təşkilatları qarşısında da bir sıra vəzifələr qoyulmuş, alimlərə muxtariyyətin tarixi ilə əlaqədar tədqiqatların aparılması, monoqrafiyaların və kitabların yazılaraq nəşr etdirilməsi aktual və mühüm vəzifə kimi tapşırılmışdır.*

Tədbirlər planında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi sahəsində bir sıra uğurlu işlər görülmüş və bu işlər ilin sonunadək davam etdiriləcəkdir. Bu cəhətdən muxtar respublikanın tarixi, mədəniyyəti, ümumiyyətlə, müxtəlif elm sahələri üzrə keçirilən konfransları, xüsusilə 4-5 iyul 2014-cü ildə "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda keçirilən beynəlxalq konfransı və müxtəlif elmi tədbirləri xatırlatmaq yerinə düşər. Muxtar respublikanın yubileyi münasibətilə çoxlu kitablar, monoqrafiyalar və məqalələr, o cümlədən "Naxçıvan Muxtar Respublikası – 90" adlı fundamental əsər hazırlanaraq nəşr olunmuşdur. "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalın və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin "Xəbərlər"inin bir nömrəsi muxtar respublikanın yubileyinə həsr olunmuşdur. Nəşr olunan kitab və monoqrafiyaların çoxu hər il 50-yə yaxın əsərin nəşrinə köməklik göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə işıq üzü görmüşdür.




Bu yaxınlarda həmin nəşrlərin sırasına daha bir kitab da əlavə olunmuşdur. Azərbaycan Respublikası "Kitab" Cəmiyyətinin xətti ilə "90 il. Naxçıvan Muxtar Respublikası" adlı miniatür kitab yüksək poliqrafik səviyyədə, nəfis şəkildə çap olunaraq elmi dövriyyəyə daxil edilmişdir. Bu günlərdə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində muxtar respublika elmi ictimaiyyəti nümayəndələrinin iştirakı ilə yüksək səviyyədə təqdimat mərasimi keçirilən, ön səhifəsi xalqımızın ümummilli lideri Heydər Əliyevin rəngli fotoşəkli və artıq ulu öndərin dillər əzbəri olmuş ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq"*** sözləri ilə başlanan kitabda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 yanvar 2014-cü ildə imzaladığı "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı, dövlət başçısının 8 aprel 2014-cü ildə keçirilən yubiley tədbirində çıxışı öz əksini tapmışdır.

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikanın 90 illik yubileyi tədbirlərində iştirak etmək üçün 7 aprel 2014-cü ildə Naxçıvana gəlmişdir. Elə həmin gün ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edən cənab Prezident həm də bölgənin müxtəlif yerlərində olmuş, bir sıra mühüm obyektlərin, o cümlədən Naxçıvan Beynəlxalq Hava Limanının yeni inzibati binasının, Naxçıvan Biznes Mərkəzinin, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin, Gənclər Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yeni inzibati binasının, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin, Kəngərli Rayon Mərkəzi Xəstəxanasının, "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının açılış mərasimlərində iştirak etmiş, Naxçıvan Muxtar Respublikasının hərbi hissələrinə daxil olan yeni texnika və silahlara baxmış, ictimaiyyətin nümayəndələri ilə görüşmüşdür. Aprelin 8-də isə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi münasibətilə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında təntənəli yubiley tədbiri keçirilmişdir. Muxtar respublikanın hökumət nümayəndələrinin, elm, mədəniyyət və incəsənət xadimlərinin, ölkəmizdəki diplomatik korpus nümayəndələrinin iştirak etdiyi yubiley tədbirində geniş və dərin məzmunlu nitq söyləyən, naxçıvanlıları böyük bayram münasibətilə təbrik edən və Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsini "gözəl hadisə, tarixi hadisə, Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar kimi" qiymətləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyev muxtariyyət ərəfəsində Naxçıvanda yaranmış vəziyyətə nəzər salmış, bölgənin blokadaya salınması məsələsinə toxunmuş, Naxçıvana muxtariyyət statusu verilməsi zərurətini yaradan səbəblərdən bəhs etmiş və demişdir: ***"... o vaxt xalqımıza qarşı ədalətsizlik də edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Bu, böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məskənlərinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda böyük türk dünyası iki yerə bölünürdü. Bu, ədalətsizlikdir, bu, sağalmayan yaradır".***

Ölkə rəhbəri son 10 ildə Naxçıvan Muxtar Respublikasına 11 dəfə səfər etdiyini xatırladaraq bölgənin son illərdə keçdiyi inkişaf yolunu təhlil etmiş, onu yüksək qiymətləndirmiş və qeyd etmişdir ki, ***"Naxçıvan sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir... Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır".***

Çıxışında ***"Naxçıvan ordusu bu gün güclü ordudur"***, – deyən cənab Prezident bölgənin hərbi potensialından, enerji təhlükəsizliyinin həllindən, yerli istehsal nümunələrindən, infrastruktur layihələrinin icrasından və sair uğurlardan bəhs edərək ***"bu uğurların təməlində ulu öndərin siyasətinin dayandığını"*** vurğulamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yubiley mərasimindəki çıxışı da kitaba daxil edilmişdir. Çıxışında keçən yüzilliyin 20-ci illərində Naxçıvan Muxtar Respublikasında yaranmış son dərəcə gərgin vəziyyəti, Naxçıvana muxtariyyət statusu verilməsi uğrunda aparılan inadlı mübarizəni, muxtariyyətin əldə olunmasında Moskva və Qars müqavilələrinin əhəmiyyətini təhlil edən Ali Məclisin Sədri həm də bölgənin son illərdə keçdiyi inkişaf yolu haqqında ətraflı məlumat vermiş və fikrini belə yekun vurmuşdur: ***"Naxçıvan Muxtar Respublikasının 90 il ərzində keçib gəldiyi yol, ondan çıxarılan nəticə bir daha təsdiqləyir ki, tarixin sınaqlarından çıxmış ulu öndər Heydər Əliyevin yolu ölkəmizin dünəninin, bu gününün, sabahının və gələcəyinin yoludur".***

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xidmətləri olan 12 nəfərə Azərbaycan Respublikasının fəxri adlarının, 10 nəfərə isə "Tərəqqi" medalının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 5 aprel 2014-cü il tarixli sərəncamları da kitabda özünə yer almışdır. Təltif olunanlar içərisində iki nəfər elm adamının "Əməkdar elm xadimi" fəxri adına, iki nəfərin isə "Tərəqqi" medalına layiq görülməsi dövlət başçısının, bütövlükdə, Azərbaycan Respublikasının elmi ictimaiyyətinə, o cümlədən Naxçıvanda yaşayıb-yaradan elm adamlarına yüksək diqqət və qayğısının yeni təzahürüdür.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə Naxçıvanda olarkən muxtar respublikada aparılan quruculuq işləri və tarixi yerlərlə tanışlığı, ictimaiyyətin nümayəndələri ilə görüşlərini əks etdirən və kitaba daxil edilən 32 ədəd rəngli fotoşəkil Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səfər çərçivəsində iştirak etdiyi tədbirləri və görüşləri əyani şəkildə təqdim edir.

***İnanırıq ki, nəşri Naxçıvan Muxtar Respublikasının, bütövlükdə, Azərbaycanın elmi həyatında mühüm hadisə kimi qiymətləndirilən, muxtar respublikanın 90 illik yubileyinə layiqli töhfə olan bu miniatür kitab bir sıra kitabxanalarda, xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvanşünaslıq Mərkəzi"nə hədiyyə edilən yüzdən artıq miniatür kitablar arasında öz layiqli yerini tutacaq və oxucular üçün mötəbər qaynağa çevriləcəkdir.***

**Fəxrəddin SƏFƏRLİ**
**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü**

***Oktyabrın 1-də Naxçıvan Dövlət Filarmoniyasında ustad tarzən, bəstəkar-pedaqoq, Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü Əkrəm Məmmədlinin 70 illik yubileyi münasibətilə tədbir keçirilib.***

# Ustad sənətkarın yubileyi qeyd edilib



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov açıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, mədəniyyət sahəsindəki səmərəli fəaliyyətinə görə Əkrəm Məmmədli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif olunub. Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanını yubilyara təqdim edib. Qeyd olunub ki, Əkrəm Məmmədli hələ 24 yaşında Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Fəxri Fərmanına, 30 yaşında isə Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülüb, 2006-cı ildə ona Prezident təqaüdü verilib.

Sonra çıxış edən mədəniyyət və turizm naziri Sarvan İbrahimov yubilyarın sənət yolundan, Azərbaycan və Naxçıvan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərindən söhbət açıb. Qeyd olunub ki, Əkrəm Məmmədli 45 ildən çoxdur, tar ifaçılığı və onun tədrisi ilə məşğuldur. Əkrəm müəllim milli musiqi alətimiz olan tar ifaçılığının sirlərini tanınmış tarzən və pedaqoq Səfər Rəcəblidən öyrənib. Musiqi təhsilini Asəf Zeynallı adına Musiqi Texnikumunda görkəmli tarzən Kamil Əhmədovun sinfində davam etdirib. Sonralar Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblında çalışan Əkrəm Məmmədlinin peşəkar tarzən kimi yetişməsində burada tanıdığı görkəmli sənətkarların rolu olub. Bu dövrdə o, keçmiş SSRİ-nin və xarici ölkələrin məşhur şəhərlərinə qastrol səfərlərində olub, solo çıxışları ilə tamaşaçı alqışı qazanıb.

Nazir qeyd edib ki, Əkrəm Məmmədlinin musiqi mədəniyyətinin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilib.

Onun "Tar üçün qamma və oppedçiolar", "Tar üçün etüdlər", "Azərbaycan muğamları" kimi kitabları tar ifaçılığı sənətini öyrənənlər üçün dəyərli tədris vəsaitləridir.

"Bu günlərdə Əkrəm müəllimin "Şərur el yallıları" kitabının birinci cildi çapdan çıxıb", – deyən Sarvan İbrahimov vurğulayıb ki, tarzən-pedaqoqun muğamlarımızın və yallılarımızın nota köçürülməsində xidmətləri böyükdür.

Tədbirdə bir vaxtlar Əkrəm Məmmədlidən tar ifaçılığını öyrənmiş tələbələri və sənət dostları çıxış ediblər. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, muxtar respublikanın əməkdar incəsənət xadimi Şəmsəddin Qasımov, Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Respublikasının əməkdar artisti Elman Əliyev, Azərbaycan Respublikasının əməkdar artisti, tarzən Zeynalabdin Babayev, Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov, kaman ustası Məhəmməd Xəlilov, filarmoniyanın Kamera Orkestrinin bədii rəhbəri və dirijoru, Xalq artisti Çingiz Axundov, Estrada Orkestrinin bədii rəhbəri və dirijoru Nizami Məmmədov, Naxçıvan Muxtar Respublikasının əməkdar artisti, tarzən Zöhrab Axundov, Naxçıvan Dövlət Filarmoniyasının baletmeysteri, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Tamerlan Bağırov, Naxçıvan Muxtar Respublikasının əməkdar artisti, xanəndə Hünər Əliyev, sənətkarın övladı Kənan Məmmədli öz ürək sözlərini bölüşüblər.

Tədbirdə musiqiçilərimizin ifasında muğamlarımızdan nümunələr, Əkrəm Məmmədlinin ifasında isə "Bəxtəvər oldu" əsəri səsləndirilib.

Sonda yubilyar Əkrəm Məmmədli çıxış edərək əməyinə və yaradıcılığına yüksək qiymət verildiyi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığını ifadə edib, musiqi mədəniyyətimizin inkişafı üçün bundan sonra da fədakarlıqla çalışacağını deyib.

**Əli RZAYEV**

# Beynəlxalq Ahıllar Günü münasibətilə tədbirlər keçirilib



1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil edilən silsilə tədbirlərin davamı olaraq, oktyabrın 1-də Şahbuz şəhərindəki Ahıllar evində tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək bildirib ki, muxtar respublikamızın bütün sahələrində müşahidə olunan dinamik inkişaf və tərəqqi, xüsusi qayğıya ehtiyacı olan insanların, o cümlədən ahılların sosial müdafiəsinin davamlı gücləndirilməsinə imkan yaradıb. Muxtar respublikamızda ahıllara müxtəlif sosial xidmətlər göstərilir, onların sağlamlığının qorunması, cəmiyyətə inteqrasiyası daim diqqət mərkəzində saxlanılır.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev çıxışında bildirib ki, Şahbuz rayonunda yaşayan ahılların güzəranının yaxşılaşdırılması, onların sağlam həyat tərzində yaşamalarının təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Ahıllar evində ahıl vətəndaşların fəal həyat tərzində yaşamaları və istirahətləri üçün hərtərəfli şərait yaradılıb, həmçinin onlara mütəmadi tibbi və sosial reabilitasiya xidməti göstərilir.

Sonda sakinlərə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, 1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayonlarında Əhalinin Sosial Müdafiəsi mərkəzləri tərəfindən sosial xidmət göstərilən tənha ahılların iştirakı ilə tədbirlər keçirilib.

Tədbirlərdə, ümumilikdə, 523 ahıla bayram sovqatı təqdim olunub.

Göstərilən diqqət və qayğıya görə ahıllar dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***



# Payız fəsli

***sanki ağacları əlvan rənglərlə boyayan mahir bir rəssamdır: qırmızı, sarı, narıncı, bənövşəyi. Erkən payızda əlvan yarpaqlardan ibarət qeyri-adi "yağış yağır". Təəssüf ki, bu gözəllik çox davam etmir: yarpaqlar tökülür, otlar saralır, güllər solur. Havalar günbəgün yağışlı, tutqun və soyuq olmağa başlayır.***

Həşəratlar xəlvət yerlərdə gizlənir, köçəri quşlar qatar-qatar düzülüb cənuba – isti ölkələrə uçmağa hazırlaşırlar. Heyvanlar qışa hazırlaşır: yay xəzlərini qış xəzləri ilə əvəzləyir, qışı keçirmək üçün rahat yuva axtarırlar. Təbiət uzun qış yuxusuna hazırlaşır ki, baharda yenidən oyansın və canlansın.

Xalq təqvimi ilə ötən həftədən payız fəsli başlayıb, gecə-gündüz bərabərləşib. Şərq xalqlarının həyatında təbiət hadisələrinin özünəməxsus rolu olub ki, bunun nəticəsində də bir sıra ayin və mərasimlər yaranıb. Eləcə də Azərbaycanda təbiət hadisələri xalqın inanclarında özünəməxsus yer tutur. Xalq arasında uzun illərin müşahidələri əsasında formalaşan qeyri-rəsmi təqvimə görə, sentyabrın 22-dən payız fəsli başlayır. Nəzərə alsaq ki, yazın gəlişini – Novruzu 21 martdan hesablayırıq, onda yayın iyunun 22-dən, payızın sentyabrın 22-dən, qış fəslinin isə dekabrın 22-dən başladığını əminliklə söyləmək olar.

Beləliklə, sentyabrın 22-dən yurdumuzda payız fəsli başlayıb. Həmin gün həm də payız gecə-gündüz bərabərliyi baş verib. Yəni gecə ilə gündüz günün 24 saatını yarıbayarı bölüşüblər. Bundan sonra gecə uzanacaq, gündüz qısalacaq. Bu uzanıb-qısalma dekabr ayının 22-nə, yəni qış fəsli girənə qədər davam edəcək. Dekabrın 22-dən, yəni ilin ən uzun gecəsi olan "şəbi-hicran"dan sonra gündüz uzanmağa başlayacaq.

Yer oxunun ekvator müstəvisinə meyilliliyi gecə və gündüzün qeyri-bərabər olmasına, fəsillərin yaranmasına səbəb olub. Yerin Günəş ətrafında hərəkəti ilə bağlı olaraq illər, fəsillər əmələ gəlir, istilik, işıqlanma və iqlim qurşaqları yaranır.

Qeyd edək ki, ildə bir dəfə payız gecə-gündüz bərabərliyi, bir dəfə isə yaz gecə-gündüz bərabərliyi baş verir. Yaz gecə-gündüz bərabərliyi gündüzün, payız gecə-gündüz bərabərliyi isə gecənin uzanmasına vəsilə olur.

Payızda gündüzlər qısalır, gecələr uzanır. Günəş tez batır, daha az istilik və işıq verir. Sərin, yağışlı və küləkli günlərin sayı artır. Ağaclar yamyaşıl gözəlliyini qızılı rəngli cazibəli bir mənzərə ilə əvəzləyir. Bir müddət sonra həmin qızılı rəngin əksi olan yarpaqlar da tökülməyə başlayır. Payız fəslinin bu dövrü insanoğluna həyat deyilən ömür yolundan bəzi məqamları xatırladır: hər payız fəslində ağacdan düşən yarpaq ömür ağacımızdan da hər payızda bir yarpaq düşdüyünü xatırladır bizə. Bir də xatırladır ki, budağından ayrılan hər yarpaq düşməyə məhkumdur, payız isə bu ayrılığa bəhanədir!

Qızılı payız təbiətlə insan arasında xoş duyğular yaradır, insanoğlunu daha duyğulu olmağa sövq edir, onu kövrək notlara kökləyir sanki.

Bu fəsildə hava dəyişkənliyi səbəbindən bəzən insanlarda soyuqlama kimi xəstəlik yaranır. Bu məqam da insanlara ibrət olacaq insanlıq halını xatırladır. Nənə-babalarımızdan eşitmişik ki, insan hər xəstələndikcə payızda ağacdan tökülən yarpaqlar kimi, onun günahları da tökülür, yəni günahlarından arınır. Bu mənada payız fəslini təbiətin yenilənməsi dövrü adlandırıblar babalarımız.

Payız həm də bolluq fəslidir. Əksər meyvələr, qida məhsulları bu fəsildə ərsəyə gəlir. İnsan ömrü də belədir: yetkin bir insan il boyu çalışdığı işin, çəkdiyi zəhmətin bəhrələrini məhz payızda "dərir".

Payız qışın xəbərçisidir. Bu fəsildə havalar yavaş-yavaş soyuyur, insanları, təbiəti qışa hazırlıq edilməsi üçün sanki xəbərdar edir. Tərəvəzlər, meyvələr və bütün qida məhsulları bu fəsildə bol olur. Bu baxımdan payız fəsli qış hazırlıqlarının sürətləndiyi bir zamandır. Bu məqamda bir zamanlar həyat həqiqətimiz olan və qışa hazırlıq işlərinin başında duran bir reallığa diqqət çəkmək istərdim. Əvvəllər istər şəhərdə, istərsə də kəndlərimizdə qışa hazırlıq deyiləndə qida tədarükündən əvvəl soyuq havadan qorunmağın qayğısı insanları, sözün əsl mənasında, ağuşuna alırdı. Hətta belə vaxtlarda "qara günümüz başladı" deyə, bir ifadə daha çox işlədilər, eşidilərdi. İnsanlar qışın soyuğundan qorunmaq üçün meşələrə üz tutar, payızın ilk günlərindən minbir əzab-əziyyətlə odun tədarükünə başlayardılar. Və, əlbəttə ki, bu cür tədarük insan həyatı üçün vacib olan yaşıllıqların, meşələrin azalması, nəticə etibarilə, təbii tarazlığın pozulması ilə nəticələnirdi. Əvvəllər "payız fəsli" ifadəsi Naxçıvan əhalisi üçün həyatın əksər sahələrində yaranacaq çətinliyin, bir növ, "xəbərçisi" idi; yenə idarələr, təşkilatlar soyuqlar səbəbindən işləməyəcək, yollar buz bağlayacaq, qar adam boyu hündürlüyünə çıxacaq, uşaqlar məktəbə gedə bilməyəcəklər, nəqliyyat, rabitə bərbad vəziyyətə düşəcək və sair.

Amma indi bütün bu çətinliklər aradan qaldırılıb, həmin qayğılar öz həllini tapıb, onlardan əsər-əlamət belə, yoxdur; o dərəcədə əsər-əlamət qalmayıb ki, məktəbə yola saldığımız övladlarımızı bir zamanlar yuxarıda bəhs etdiyim çətinlikləri yaşadığımıza inandırmaqda çətinlik çəkirik.

***Payız gəlib... Bu payız hamınıza xoşbəxtlik gətirsin...***

**Səyyar MƏMMƏDOV**

*Gənc istedadlar*

## Ülviyyənin rənglər dünyası



***Bu günlərdə Naxçıvan şəhərindəki 8 nömrəli tam orta məktəbin foyesində təşkil olunan rəsm sərgisi diqqətimi çəkdi. Öyrəndim ki, sərgidəki rəsm əsərləri məktəbin şagirdi Ülviyyə Şirinovaya məxsusdur. Onun əl işlərinə baxdıqca bu rəsm həvəskarının sənət dünyası ilə daha da yaxından tanış olurdum. İlk baxışdan bu rəsmləri 12 yaşlı bir yeniyetmənin çəkdiyinə inanmaqda bir az çətinlik çəkirsən. Hər rəsm əsəri tamaşaçıya təlqin etdiyi fikir aydınlığı ilə seçilir. Onda kompozisiya qurmaq, boyalardan, rəng çalarlarından düzgün istifadə etmək bacarığı güclüdür və rənglərin seçimində çox dəqiqdir.***

Ülviyyəni oxucularımızla yaxından tanış etmək üçün onunla həmsöhbət oldum. 2002-ci ildə Naxçıvan şəhərində anadan olan Ülviyyə VII sinif şagirdidir. İkinci sinifdən rənglərə mehr salıb. İlk personajları isə nağıl qəhrəmanları olub. Deyir ki, nağılları oxuduqdan sonra qəhrəmanların döyüş səhnələri, onların şər qüvvələrlə mübarizələrini gözümün önündə canlandırır və bunları kağız üzərinə köçürürdüm.

Rəssamlığa marağını hiss edən valideynləri Ülviyyəni Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinə gətirirlər. O, buradakı rəsm dərnəyinin üzvü olur. Dərnəkdə rəssamlığın sirlərinə yiyələnməklə yanaşı, həm də təşkil olunan rəsm müsabiqələrində iştirak edir. Mərkəzdə yaradılan rəsm studiyası Ülviyyənin istedadının ortaya çıxmasına köməkçi olur. Ülviyyə tez-tez Naxçıvanın görməli yerlərinə gedir, canlı mənzərələr çəkir, qədim diyarın tarixi abidələrini, füsunkar mənzərələrini tabloya köçürür. Bu qəbildən onun "Hüseyn Cavid", "Möminə xatın", "Yusif Küseyir oğlu türbəsi", "Naxçıvanın bu günü", "Çiçəklənən diyarım" və başqa rəsmləri Ülviyyənin işıqlı gələcəyindən soraq verir.

Ülviyyə böyüdükcə rəsmə həvəsi daha da artır. Onun Vətənə olan sevgisi rəsm əsərlərindən açıq-aydın görünür. Vətən mövzusunda rəsmlərə daha çox üstünlük verir. "Azərbaycan Ordusuna eşq olsun!" adlı rəsm əsərində Azərbaycan əsgərinin mübariz baxışları insanda qürur hissi yaradır.

Ülviyyənin digər bir tablosuna – sülh mövzusundakı rəsm əsərinə baxıram. Bəşəri rəmzə çevrilmiş bir anlayış kimi sülhün özünəməxsus rənglərlə 12 yaşlı bir yeniyetmə tərəfindən canlandırılması çox diqqətçəkicidir. Ümumiyyətlə, Ülviyyənin çəkdiyi rəsmlərə bir toplu halda baxıldıqda bu, imkan verir ki, onun yaradıcılığı haqqında ətraflı söz deyə biləsən, onun həyat müşahidələrini qiymətləndirəsən.

Xalqımızın başına gətirilən müsibətlər də məktəbli rəssamın düşüncələrində özünəməxsus yer tutub. "Xocalı unudulmaz", "Şəhidlər", "Qanlı gecə", "Qaçqınlar" və başqa tablolarda Azərbaycan torpaqlarının müqəddəsliyi, öz dədə-baba yurdlarından didərgin düşmüş soydaşlarımızın ağrıları təsvir olunur. Bu rəsmlərdə düşmənə nifrət hissi tamaşaçıya ilk anda bəlli olur. Həmin tablolarda həm də xalqımızın sabaha ümidləri duyulur. Haqq-ədalətin öz yerini tutacağını gənc fırça həvəskarı maraqlı rəng çalarları ilə rəsm edə bilib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyevanın yeniyetmə həmkarı haqqında dedikləri:

– Bu gün muxtar respublikamızda istedadlı gənclərin üzə çıxarılması üçün həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir. Məhz Ülviyyənin istedadını belə tədbirlərin birində gördüm. O, çox istedadlı qızdır. Demək olar ki, bütün əl işləri ilə yaxından tanış olmuşam. Onun əsərlərində mən işıq görürəm, o işıq ki, daim parlayacaq. Rəssamlar Birliyi olaraq Ülviyyəni daim nəzarətdə saxlayırıq. Bu günlərdə fərdi sərgisi də təşkil olundu. İnanıram ki, Ülviyyənin rəssamlıq sənətində uğurları çox olacaq.

***Ülviyyə həm də dərs əlaçısıdır. Sınaq imtahanlarında yüksək bal toplayır. Gələcəkdə məşhur rəssam olmaq istəyən Ülviyyə bu istəyini reallığa çevirmək üçün daim öz üzərində çalışır, görkəmli fırça ustalarının həyat və yaradıcılığını izləyir. Arzu edirik ki, o, sənətin elə bir zirvəsinə yüksəlsin ki, gələcəkdə onun yaradıcılığı izlənilməyə layiq olsun.***

**Sara ƏZİMOVA**

## Şahbuzda şahmat yarışı

29-30 sentyabr tarixlərində Şahbuz rayonunda 5 oktyabr – Müəllimlər Günü münasibətilə ümumtəhsil məktəblərində şahmat dərsini tədris edən müəllimlər arasında rayon Şahmat Məktəbində şahmat üzrə rayon birinciliyi keçirilib. Şahbuz Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin təşkil etdiyi yarışda 20 müəllim iştirak edib. Yuxarı Qışlaq kənd tam orta məktəbinin müəllimi Vüsal Mustafayev hamıdan yaxşı oyun nümayiş etdirərək birinci, Qızıl Qışlaq kənd tam orta məktəbinin müəllimi Sahib Məmmədov ikinci, Kolanı kənd tam orta məktəbinin müəllimi Arif Zülfüqarov isə üçüncü olublar. Qaliblərə təşkilatçılar tərəfindən diplomlar verilib.

**Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Yetkinlik yaşına çatmış övladların valideynlərini saxlamaq vəzifəsi qanunvericiliklə necə tənzimlənir?*

**Cavab:** Ailə qanunvericiliyinə əsasən, əmək qabiliyyəti olan yetkinlik yaşına çatmış övladlar maddi yardıma ehtiyacı olan əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa və onlara qayğı göstərməyə borcludurlar. Aliment ödənilməsi barədə saziş olmadıqda əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan valideynlər üçün aliment əmək qabiliyyəti olan və yetkinlik yaşına çatmış övladlardan məhkəmə qaydasında tutulur. Övladların hər birindən tutulan alimentin həcmi məhkəmə tərəfindən valideynlərin və övladların maddi vəziyyəti, ailə vəziyyəti və tərəflərin diqqətəlayiq digər maraqları nəzərə alınmaqla hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən edilir. Alimentin miqdarı müəyyən olunarkən məhkəmə tələbin valideynlərin əmək qabiliyyəti olan və yetkinlik yaşına çatmış övladlarından hamısına, birinə və ya bir neçəsinə verildiyindən asılı olmayaraq, onların hamısını nəzərə almağa haqlıdır. Valideynlərin öz valideynlik vəzifələrini yerinə yetirməməsi məhkəmə tərəfindən müəyyən olunarsa, uşaqlar əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan valideynlərini saxlamaq vəzifəsindən azad edilə bilərlər. Uşaqlar valideynlik hüquqlarından məhrum edilən valideynlərinə aliment ödəməkdən azad edilirlər.

Həmçinin yetkinlik yaşına çatan övladlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamadıqda və valideynləri ağır xəstəliyə tutulduqda, şikəst olduqda, onlara qulluq etməyə görə kənar şəxslərə haqq ödəmək lazım gəldikdə və digər müstəsna hallarda yetkinlik yaşına çatmış övladlar məhkəmə qaydasında yuxarıdakı hallarla əlaqədar əlavə xərclərin çəkilməsinə cəlb edilə bilərlər. Yetkinlik yaşına çatan övladların hər biri tərəfindən əlavə xərclərin ödənilməsi qaydası və bu xərclərin miqdarı məhkəmə tərəfindən, valideynlərin və uşaqların maddi və ailə vəziyyətləri, digər diqqətəlayiq hallar nəzərə alınmaqla ailə qanunvericiliyinə uyğun olaraq müəyyən edilir. Əlavə xərclərin ödənilməsi qaydası və bu xərclərin miqdarı tərəflərin sazişi ilə də müəyyən oluna bilər.

İnzibati xətalar qanunvericiliyinə əsasən, yetkinlik yaşına çatmış şəxslərin əmək qabiliyyəti olmayan valideynlərini saxlamaqdan və onlara baxmaqdan qəsdən boyun qaçırmasına görə xəbərdarlıq edilir və ya otuz manatdan qırx manatadək miqdarda cərimə edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 838